# Milli-mənəvi dəyərlərimizin qorunmasında medianın rolu

Azərbaycan dövləti öz müstəqilliyini əldə etdikdən sonra bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və düzgün təbliğ olunması istiqamətində də mühüm addımlar atılıb. Bu gün Azərbaycanda dövlət-din münasibətləri normal şəkildə inkişaf edir, ayrı-ayrı konfessiyalar bərabər fəaliyyət göstərir. Bütün bunları mətbuatda düzgün işıqlandırmaq, cəmiyyəti maarifləndirmək, media ilə din arasındakı münasibətləri, o cümlədən Azərbaycanda media azadlığından sui-istifadə edərək digər cərəyanların təbliğ edilməsinin qarşısını almaq məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində media nümayəndələri ilə görüş keçirildi. Görüşü giriş sözü ilə Komitənin sədri Mübariz Qurbanlı açaraq dedi: "Bu gün Azərbaycanda dövlət-din münasibətlərində qarşımızda iki mühüm məsələ durur. Dini radikal qruplara qarşı ideoloji sahədə mübarizəni gücləndirmək, burada medianın rolunu artırmaq və dini xurafata qarşı mübarizə aparmaq. Bu gün ulu öndər Heydər Əliyevin müəyyən etdiyi dövlət konsepsiyasında milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atmışıq. Müstəqilliyimizin 25 ili ərzində tarixi bir yol keçərək, bu günə qədər gəlib çatmışıq. Bu gün ölkəmizdə media azadlığı, söz azadlığı var. Lakin elə mövzular var ki, burada çox həssas olmalı, milli-mənəvi dəyərlərlə, xalqın adət-ənənələri, dini inanclar ilə bağlı mövzularda xüsusilə diqqətli olmaq lazımdır. Çünki adicə bir səhv cəmiyyət arasında böyük bir hadisəyə çevrilə bilir. Ölkəmiz çoxkonfessiyalı ölkədir, dövlətimizin siyasətində bütün dinlərə eyni yanaşma müşahidə olunur. Bu səbəbdən də media yerli-yersiz yazıların gündəmə gəlməsinə yol verməməli, bununla mübarizə aparmalıdır".



Sonra söz Mətbuat Şurasının sədri Əflatun Amaşova verildi. O bugünkü konfransın əhəmiyyətini qeyd edərək dedi: "Hər dəfə belə konfransların keçirilməsi ilk öncə jurnalistlərin ixtisaslaşmasına xidmət edir. Çünki hər hansı bir mövzudan yazarkən o sahəni dərindən bilmək böyük şərtdir. Bu gün dindən yazan jurnalist dövlət-din münasibətlərini düzgün analiz etməli, hadisələrə real yanaşmalıdır. Azərbaycan mediası dünyəvi mediadır və dünyəvilik prinsipini əsas götürərək ölkə ictimaiyyətinə çatdırır. Ümumiyyətlə, Azərbaycan jurnalistikası Azərbaycan dövlətinin dini azadlıqları sahəsində əldə etdiyi bütün tədbirləri dəstəkləyir və islamafobiyanın bütün ölkələrdə sürətlə yayıldığı bir dövrdə buna qarşı mübarizə aparır".

"Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Bəxtiyar Sadıqov da media və dinin çox gərəkli bir mövzu olduğundan danışdı: "Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra mətbuat sahəsində də bir dönüş yarandı. Müstəqil mətbuat meydanı gəldi. Ulu öndər Heydər Əliyev mətbuat üzərində senzuranı ləğv etdikdən sonra jurnalistlər öz yazılarında tam sərbəst oldular. Dövlətin xarici siyasətindən, dövlətlərarası münasibətlərdən, bir sözlə, ənənəvi olmayan yazılar yarandı. O cümlədən də dini mövzular. Bu gün dövlətin dinə münasibətində heç bir problem yoxdur. Möhtərəm Prezidentimiz 2016-cı ili "Multikulturalizm ili" elan edib. Azərbaycanda olan tolerant mühit bütün ölkələrə nümunədir. Dövlətimizin siyasətində milli-mənəvi dəyərlərimiz çox böyük yer tutur. Milli-mənəvi dəyərlərimizin içərisində isə dinin xüsusi yeri var. Biz jurnalistlər də bu dəyərlərimizi qorumalı, dini radikalizmə və təriqətçiliyə qarşı mübarizə aparmalı, dinimizin gözəlliyini təbliğ etməyi bacarmalıyıq. Terrorizm və zorakılığa qarşı mübarizəni gücləndirməliyik. Çünki xristian dünyası bunu islama bağlamaqla öz əməllərini pərdələməyə, islamı gözdən salmağa çalışır. Bir sözlə, biz bu mövzuda yazarkən düzgün mövqedə dayanmalı, savadlı, doğru, dürüst yazılar yazmalıyıq".

Millət vəkili Fazil Mustafa Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bugünkü fəaliyyətindən söz açdı. Qeyd etdi ki, mediada dinə baxışda ixtisaslaşma problemi var. Bu gün Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən jurnalistlərin maarifləndirilməsi üçün müəyyən tədbirlər həyata keçirilir. Belə ki, komitənin nəşr etdiyi nəşrlər, ədəbiyyatlar, hətta gözdən əlillər üçün Quran kitabının buraxılması və s. Lakin hansısa ölkələrin ideologiyasını, təriqətləri yaymaq üçün ixtisaslaşan saytlar da var. Bu baxımdan da Azərbaycanın dövlət maraqlarını düşünən media ixtisaslaşma istiqamətində addımlar atmalıdır. Komitə tərəfindən kurslar təşkil olunmalı, tədbirlər keçirilməlidir. Çünki doğru din anlayışını ictimaiyyətə çatdırmaq üçün bu gün buna böyük ehtiyac var. Doğru islam anlayışı ilə yanlış islam anlayışını ayıra bilən jurnalistlər yetişməlidir. Əks təqdirdə əlinə silah alan hər bir kəsi islamla bağlayırlar. Bu səbəbdən də kursların təşkil olunması, maarifləndirmə işlərinin aparılması işin xeyrinə olacaq".

Konfransın sonunda DQİDK-nın sədr müavini Gündüz İsmayılov "Mövcud dini durum və media", Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitik şöbəsinin müdiri Nəriman Qasımoğlu isə "Dinlərdə multikultural dəyərlər və onun mediada təbliği" mövzusunda məruzə ilə çıxış etdilər.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**